# ULU ÖNDƏRİMİZİN 100 İLLİYİ MÜNASİBƏTİİLƏ MÜKAFATLANDIRMA MƏRASİMİ KEÇİRİLDİ







Dünən - 15.09.2023-cü il tarixində Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzində Ulu Öndərimizin 100 illiyi çərçivəsində mükafatlandırma mərasimi keçirildi. Mükafatlandırma mərasimindən qabaq DAMM-ın I vitse-prezidenti, həmişə adını Nəzakət xanım Əhmədovadan fəxrlə eşitdiyim vətənpərvər xanım Ruhiyyə Poladova ilə şəxsən tanış oldum. Ruhiyyə xanım bir daha mənim yaradıcılığımla, təhsilimlə maraqlandı. Məni tanıdığını, fəaliyyətimi izlədiyini söylədi. Mənə dəyərli tövsiyələrini verdi və fəxr etdiyini, gələcəyimizin savadlı gənclərimizdən asılıolduğunu qeyd edərək uğurlar arzu etdi. Tədbirdə dəyərli ziyalılarımızla tanış oldum.Onlardan DAMM-ın vitse-prezidenti Lalə Həşimovanı, "Xan Qızı Natəvan" DAQİB-in rəhbəri Könül Abbasovanı, C.Novruz MM-nin əməkdaşı, Günaz.az saytının redaktoru Rəsmiyyə Heybətağaqızını yaxından tanımaq imkanım oldu. Həmçinin tədbir iştirakçılarımaarifləndirici söhbətlər apardılar və bəzi məsələlər üzrə geniş müzakirələr apardılar. Xoş əhvali-ruhiyyədə faydalı təkliflər də irəli sürüldü. Tədbirdə DAMM-ın I vitse-prezidenti Ruhiyyə Poladova, DAMM-ın vitse-prezidenti Lalə Həşimova, DAMM-ın Gənclər Şurasının sədri Kamil İskəndərzadə, DAMM-ın Ekspertlər Şurasının sədri Nəzakət Əhmədova və DAMM- ın vitse-prezidenti Ramil Məlikov Ulu Öndərimizin yubiley ili ilə əlaqədar gördükləri səmərəli fəaliyyətlərinə görə Azər.KİVİHİ-nin yubiley medalları ilə təltif olundular. Həmçinin "Xan Qızı Natəvan" DAQİB-in rəhbəri Könül Abbasova, C.Novruz MM-in əməkdaşı, Gün az.az saytının redaktoru Rəsmiyyə Heybətağaqızı, Kamil İsgəndərzadə və Təranə Balayeva DAMM-ın Fəxri Diplomu ilə təltif edildilər.

Tədbirdə mən də Azər.KİVİHİ-nin yubiley medalı və DAMM-ın Fəxri Diplomu ilə təltif olundum. Tədbirdə 8 yaşımda Ulu Öndərimizə həsr etdiyim "Ulu Öndərimiz" adlı şeirimi söylədim.

Bu dəyərli mükafatlara görə Azər.-KİVİHİ-nin rəhbərliyinə və DAMM-ın I vitse-prezidenti, Ruhiyyə xanım Poladovaya dərin minnətdarlığımı bildirirəm. Bu mükafatları kiçik əməyimə verilən ən böyük mükafat hesab edirəm. Tədbir iştirakçılarının mənə göstərdikləri diqqət və qayğıya görə hər birinə minnətdarlığımı bildirirəm.

Allah Ulu Öndərimiz Heydər Əliyevə rəhmət eləsin! Amin!

***SEVİNDİK NƏSİBOĞLU,***
***10-cu sinif şagirdi, şair-publisist, AJB üzvü***
***16.09.2023***